BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3* *Humanitar elmlər seriyası* *2013*

**UOT 94 “19/...”**

# ÇEÇEN XALQININ AZADLIQ MÜBARİZƏSİ VƏ ABŞ-ın MÖVQEYİ

**Ə.A.ZEYNALABDİNOV**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***zeynalabdinov86@mail.ru***

*Məqalə “Çeçen xalqının azadlıq mübarizəsi və ABŞ-ın mövqeyi” mövzusuna həsr edilmişdir. Burada XX əsrin 90-cı illərində SSRİ-nin dağılmasından sonra çeçen xalqının öz suveren hüquqlarının bərpası uğrunda mübarizəyə başlaması və ABŞ-ın bu mübarizəyə münasibəti araşdırılmışdır. Məqalədə həmçinin mübarizə dövründə ABŞ-ın mövqeyində baş verən dəyişikliklər göstərilmişdir.*

**Açar sözlər:** ABŞ, çeçen, mübarizə, mövqe, münaqişə

XX əsrin son onilliklərində beynəlxalq münasibətlərdə ciddi dəyişikliklər baş verdi. Ən başlıcası bu illərdə iki sistem-sosializm və kapitalizm (ABŞ-SSRİ) arasında hərbi-siyasi qarşıdurma sona çatdı. Xarici və daxili təsirlər nəticəsində SSRİ dağıldı və sosialist sistemi öz mövcudluğunu itirdi.

Sosializm sisteminin dağılmasından sonra Rusiya Şərqi Avropa ölkələri üzərində olan nəzarətini itirdi. Rus hərbi qüvvələri Şərqi Avropa ölkələri ərazisindən çıxarıldı. Bütün bunlar və digər bu kimi amillər ABŞ-ın Avropada mövqelərinin möhkəmlənməsinə şərait yaratdı. Bu proseslər Qafqaz regionuna da təsirsiz ötüşmədi.

XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin dağılmasından sonra Qafqaz regionunda bir sıra respublikalar müstəqillik əldə etdi. Bunun nəticəsində Şimali Qafqazda yaşayan xalqlar arasında öz suveren hüquqlarının bərpası uğrunda mübarizə genişləndi. Çeçenlərdə bu özünü daha qabarıq şəkildə büruzə verdi.

Çeçenistanın geostrateji cəhətdən əlverişli mövqedə yerləşməsi və təbii sərvətlər baxımından zənginliyi Rusiya üçün böyük əhəmiyyət kəsb etdiyindən burada azadlıq mübarizəsinin başlanması onu ciddi şəkildə narahat edirdi. Digər tərəfdən Çeçenistanın müstəqillik əldə etməsi Rusiyanın Şimali Qafqazda mövqelərinə ciddi zərbə vurar və regionun digər xalqlarının azadlıq uğrunda mübarizəsinə təkan verə bilərdi. Buna görə də, Çeçenistandakı hadisələrə Rusiya tərəfindən sərt reaksiya verildi.

Bəhs edilən dövrdə ABŞ xarici siyasətinin əsas istiqamətlərindən biri yaranmış yeni müstəqil dövlətlərin tanınması və onlarla əlaqələrin qurulması oldu. ABŞ üçün Qafqaz regionu mühüm əhəmiyyət kəsb etdiyindən regionda baş verən proseslər, o cümlədən çeçen xalqının azadlıq mübarizəsi rəsmi Vaşinqtonun diqqət mərkəzindən kənarda qala bilməzdi.

Çeçen xalqının azadlıq mübarizəsinə münasibətdə ABŞ-ın mövqeyinin araşdırılması məqalədə qarşıya qoyulan əsas məqsəddir. Bu sahədə ABŞ-ın mövqeyinin tədqiqi, onun Qafqaz siyasəti və Rusiya Federasiyası ilə münasibətlərinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Mövzunun aktuallığını şərtləndirən əsas amillərdən biri də müasir dövrdə ABŞ-ın xarici siyasət strategiyasında Şimalı Qafqaz regionunun mühüm yer tutması ilə bağlıdır.

Regionda baş verən proseslər XX əsrin 90-cı illərinin əvvəllərində Şimali Qafqazda vəziyyətin pisləşməsi ilə nəticələndi. 1991-ci ilin oktyabrın 27-də Çeçenistanda keçirilən prezident seçkiləri nəticəsində aviasiya general mayoru C.Dudayev qalib gəldi. Noyabrın 1-də isə Dudayevin Çeçenistan Respublikasının suverenliyinin elanı haqqında fərmanı dərc edildi.

1992-ci ilin martın 12-də parlament çeçen konstitusiyasını qəbul etdi və Çeçenistanı müstəqil dövlət elan etdi. İyunun 10-da isə ölkə ərazisindəki Rusiya Müdafiə Nazirliyinin strukturları ləğv edildi (1, 267).

1991-1992-ci illər ərzində baş verən bu proseslər nəticəsində regionda vəziyyət daha da gərginləşdi. Çeçenistanın müstəqilliyi ilə barışmayan Rusiya Federasiyası hərbi güc tətbiqinə əl atdı. 1994-cü ildə rus qoşunları Çeçenistan ərazisinə daxil oldu.

B.Yelsinin Çeçenistana hərbi güc tətbiq etmək planı Klintonun Rusiya komandasını çaşdırdı. Hərbi müdaxilədən əvvəl Klinton administrasiyasının Çeçenistanla bağlı siyasəti yox idi. Yalnız 1993-cü ilin aprel ayında çeçen məsələsi Dudayevin nüvə silahına malik olma iddiası ilə bağlı olaraq müzakirə edildi. Bu məsələnin yalan olduğu ortaya çıxsa da, Klinton administrasiyasının bəzi məmurları üçün Dudayevin təhlükəli, qeyri-sabit lider olmasını təsdiq etmiş oldu. Rəsmi Vaşinqtonu Rusiyanın öz respublikalarından birinə qarşı hərbi əməliyyat aparmaq qərarı təəccübləndirdi. Rusiyada ilk dəfə demokratik yolla seçilən B. Yelsin rəhbərliyi Klinton prezidentliyi dövründə ABŞ üçün xüsusi əhəmiyyətli idi. Onun administrasiyası açıq şəkildə hiss edirdi ki, Yelsin rəhbərliyi Rusiyada demokratik proseslər üçün vacibdir və bu hiss Klintonu Çeçenistandakı müharibəni tənqid etməkdən çəkindirirdi. 1994-cü ilin dekabrın 11-də prezident Klinton Mayamidə keçirilən mətbuat konfransında bu müharibənin Rusiyanın daxili işi olduğunu qeyd etdi (6).

Çeçenistanda başlayan müharibə rəsmi olaraq qeyri-qanuni silahlı qruplaşmaların tərksilah edilməsini nəzərdə tutan Çeçenistan Respublikasında konstitusion qaydaların bərpası tədbirləri adlanırdı. 1941-1945-ci illər Böyük Vətən müharibəsinin başa çatmasından sonra ilk dəfə olaraq rus qoşunları öz ərazilərində belə geniş miqyaslı hərbi əməliyyat həyata keçirməli idilər (5, 381-382).

1995-ci ilin iyulun 29-dan 30-na keçən gecə tərəflər Çeçenistan Respublikasında vəziyyətin sülh yolu ilə nizamlanması haqqında razılıq əldə etdilər. 1996-cı il avqustun 31-də Xasavyurtda Rusiya Federasiyası prezidentinin Çeçenistandakı səlahiyyətli nümayəndəsi A.Lebed və çeçen hərbi qüvvələri ştabının rəisi A.Məshədov sülh sazişi imzaladılar. Tərəflər atəşkəs elan edilməsi və Çeçenistan ərazisindən federal qüvvələrin çıxarılması haqqında razılığa gəldilər (3, 722).

1996-cı ildə ABŞ prezident administrasiyası RF ilə Çeçenistan arasındakı razılığa görə əldə edilən atəşkəsi dəstəklədi. 1997-ci ilin yanvarın 27-də Çeçenistanda keçirilən növbəti prezident seçkilərində A.Məshədov qalib gəldi. Elə həmin ildə isə Rusiya ilə sülh və qarşılıqlı münasibətlər haqqında müqavilə imzalandı.

Çeçen xalqının azadlıq mübarizəsinə münasibət ABŞ-ın siyasi dairələrində heç də yekdil deyildi. Belə ki birinci rus-çeçen müharibəsi dövründə Klinton administrasiyası Rusiyanın ərazi bütövlüyünü dəstəkləyərək çeçenlərə qarşı edilən təzyiqlərə ciddi əhəmiyyət vermədiyi halda, konqresdəki müxtəlif müxalifət liderləri vəziyyətlə bağlı öz narahatlıqlarını bildirdilər. Klintonun prezidentliyi dövründə senator J.Helms Çeçenistan məsələsinin gündəmə gətirilməsində mühüm rol oynadı. Dövlət Xarici İşlər Komitəsi sədri olan J.Helms Rusiyanı çeçenlərə qarşı güc tətbiq etdiyi üçün qınadı (7).

Xasavyurt anlaşmasının bağlanması tərəflər arasında atəşkəsə səbəb olsa da, bu uzun müddət davam etmədi. XX əsrin 90-cı illərinin sonunda Şimali Qafqaz regionunda vəziyyət yenidən gərginləşdi. Buna səbəb çeçen silahlı qüvvələrinin Dağıstan ərazisinə hücum etmələri oldu. Hadisələrin belə təzahür etməsi regionda yenidən müharibənin alovlanması ilə nəticələndi.

1998-ci ildə Klinton administrasiyası Sudan və Əfqanıstan ərazisində hərbi əməliyyatlara başladı. Bu, Usama Ben Ladenin düşərgələrinin məhv edilməsi ilə bağlı idi. ABŞ-ın bu əməliyyatlarına cavab olaraq Çeçenistanın baş nazirinin müavini Vaxa Arsanov rəsmi Vaşinqtona qarşı müharibə elan etdi.

ABŞ konqresində çıxış edən Stiven Sestanoviç bildirdi ki, çeçen üsyançıları ABŞ obyektlərinə zərbələr endirmiş və ya onun maraqlarına təhlükə törədən xaricdən radikal qruplardan, o cümlədən Usama ben Ladenin təşkilatından yardım alır (2, 330).

1999-cu ilin avqust ayında baş nazir V.Putinin Dağıstana səfərindən sonra da regionda vəziyyətin stabilləşməməsi və sonrakı aylarda terror aktlarının genişlənməsi həmin ilin oktyabrında rus qoşunlarının yenidən Çeçenistana soxulması ilə nəticələndi.

1999-cu ildən sonra ABŞ Çeçenistan siyasətində dəyişiklik baş verdi. Qeyd edilən dövrdən başlayaraq rəsmi Vaşinqton problemin beynəlxalq səviyyədə həlli istiqamətində siyasət yeritməyə başladı. Bu baxımdan ABŞ administrasiyası Çeçenistan böhranının ATƏT-in İstanbul sammitində əsas müzakirə mövzusu olmasına çalışırdı. Bu yolla ABŞ administrasiyası böhranla bağlı Rusiyaya təsir göstərmək niyyətində idi. Çünki məsələnin beynəlxalq

səviyyədə müzakirəsi ABŞ-a Rusiyaya problemlə bağlı təzyiq etməyə imkan verə bilərdi. Buna görə də, artıq sammit ərəfəsində qeyd edilən məsələ ilə bağlı rəsmi Vaşinqtonun mövqeyində dəyişikliklər baş verdi. Klinton administrasiyası Çeçenistandakı müharibəni artıq Rusiyanın daxili işi hesab etməkdən imtina etdi. İstanbul sammitində isə dövlət katibi M.Olbrayt bunu daha açıq şəkildə bəyan etdi.

1999-cu ilin noyabr ayında ATƏT-in İstanbulda keçiriləcək növbəti sammiti ərəfəsində Rusiya və ABŞ dövlət xadimləri tərəfindən Çeçenistandakı vəziyyətlə bağlı müxtəlif fikirlər söylənməyə başladı.

Rusiyanın xarici işlər naziri İ. İvanov hər hansı bir ölkənin Çeçenistan problemini onların əleyhinə istifadə etməyə çalışmasını sammitdə məsələnin konstruktiv həllində çətinlik yaradacağını bildirdi (10).

ABŞ prezidenti B. Klinton isə Çeçenistan konfliktinin siyasi həlli ilə bağlı RF prezidenti Yelsini inadla vadar edəcəyini bəyan etdi. Bununla yanaşı prezident Rusiyanı onun fəaliyyətinin terrorizm təhlükəsini azaltmaqdan çox artıracağı haqqında xəbərdarlıq etdi (9).

İkinci çeçen müharibəsinin gedişində Klinton administrasiyası Çeçenistanda qaçqınlara kömək etmək üçün 10 milyon dollar pul ayırdı. Bununla ABŞ hökuməti insan hüquqlarının qorunmasında maraqlı olduğunu və bu kimi məsələlərə biganə qalmadığını nümayiş etdirmək fikrində idi. Digər tərəfdən administrasiya nümayəndələri Çeçenistana beynəlxalq müşahidəçilərin göndərilməsinə çalışırdılar. Beynəlxalq müşahidəçilərin ölkə ərazisinə daxil olması rəsmi Vaşinqtona böhranla bağlı siyasətin müəyyənləşməsində kömək edə bilərdi. Ona görə də, prezident Klinton 1999-cu ilin sentyabr ayında Oklendə (Yeni Zelandiya) baş nazir V.Putinlə görüş zamanı bu məsələni ortaya qoydu. Lakin bu heç bir nəticə vermədi.

1999-cu ilin 7 dekabrında B. Klinton Rusiyanın Çeçenistanda apardığı müharibənin regionda anti-rus əhval ruhiyyəsi yaradacağı və Moskvanın xarici aləmdəki nüfuzuna zərbə vuracağını söylədi (8).

Lakin onu da qeyd etmək lazımdır ki, ATƏT-in İstanbul sammitində ABŞ dövlət xadimləri tərəfindən Çeçenistan böhranı ilə bağlı bir sıra fikirlər söylənilsə də Klinton administrasiyası Rusiya ilə münasibətlərin pisləşməsində maraqlı deyildi. Bu baxımdan prezidentin mövqeyi də fərqli idi.

B.Klintonun fikrinə görə, Çeçenistan kimi kiçik məsələlər ABŞ-ın Rusiyaya münasibətinin mərkəzində dayana bilməz (2, 333).

2000-ci ilin 20 iyulunda böyük səkkizlərin Yaponiyanın Naha şəhərində növbəti sammiti keçirildi. Sammit zamanı ABŞ senatoru Çeçenistan məsələsi ilə bağlı məruzə etdi. O, bu çıxışı ilə Rusiyanın Çeçenistandakı fəaliyyətinin əleyhinə olduğunu bildirdi. Çıxışda deyilirdi: “Prezident Putin ilə görüş zamanı ABŞ prezidentinin Rusiyada iqtisadi islahatlar və regional sabitlik məsələlərini müzakirə edəcəyi gözlənilir. Prezident B.Klinton Rusiya prezidentinə bildirməlidir ki, Rusiyanın Çeçenistandakı fəaliyyəti beynəlxalq humanitar hüquq pozuntusu ilə yanaşı, Rusiyada iqtisadi islahatlar keçirilməsinə mane olur və

regionda qeyri-sabitlik yaradır. Klinton açıq şəkildə bildirməlidir ki, nə qədər ABŞ Rusiyanın ərazi bütövlüyünü dəstəkləyir və konflikt zamanı hər iki tərəf əsgərlərinin törətdiyi insan hüquqları pozuntularından xəbərdardır, biz Rusiyanın Çeçenistandakı fəaliyyətini qınayacaq və buna qarşı öz etirazımızı bildirməkdə davam edəcəyik" (12).

2000-ci ilin yanvar ayında M.Olbrayt da bildirdi ki, Çeçenistandakı müharibə Rusiyanın maraqlarında deyil və Moskvanı beynəlxalq təcridə doğru aparır (11).

Lakin bütün bunlara baxmayaraq həm birinci, həm də ikinci çeçen müharibəsinə münasibətdə ABŞ-ın mövqeyi heç də tamamilə fərqli deyildi. Hər iki müharibə dövründə Klinton administrasiyası Rusiyanın ərazi bütövlüyünü dəstəkləyirdi. ABŞ Dövlət Katibinin müavini Talbott bunu belə izah edirdi: Çeçenistan, Dağıstan, İnquşetiya Rusiya Federasiyası ərazisində mövcud olan respublikalardır. Biz Rusiyanın beynəlxalq sərhədlərini və öz vətəndaşlarını separatizmin təzahürlərindən və qanuni hakimiyyətə hücumdan qorumaq öhdəliklərini tanıyırıq (2, 330).

2001-ci il sentyabr ayının 11-də Nyu-Yorkda dünya ticarət mərkəzinin dağıdılmasından sonra Rusiyanın Çeçenistana qarşı propaqandaları beynəlxalq terrorizmlə mübarizə qismində aparılmağa başladı. Bundan sonra Rusiya Federasiyası 2003-cü ilin mart ayında Çeçenistanda referendum keçirdi. Prezident seçkiləri nəticəsində Ə.Kadırov qalib gəldi. Lakin 2004-cü ildə baş verən terror aktı nəticəsində Ə.Kadırov həlak oldu. Onu əvəz edən Ə.Alxanov da Rusiya yönümlü siyasət yeritməkdə davam etdi. Bəhs edilən dövrdə ABŞ və digər Qərb dövlətləri tərəfindən atılan bir sıra addımlara baxmayaraq Çeçenistandakı böhran öz həllini tapa bilmədi.

Yekun olaraq çeçen xalqının azadlıq mübarizəsinə münasibətdə ABŞ-ın mövqeyinə gəlincə qeyd etmək lazımdır ki, rəsmi Vaşinqton bu məsələdə Rusiyanın ərazi bütövlüyünü dəstəkləmiş və Çeçenistanı onun (Rusiyanın) bir subyekti hesab etmişdir. ABŞ dövlət xadimlərinin bəziləri Rusiyanı qınasa da, ümumilikdə Klinton administrasiyası rəsmi Moskvaya bu problemlə bağlı münasibətdə ehtiyatla davranırdı. 1999-cu ildən sonra ABŞ-ın çeçen məsələsi ilə bağlı münasibətində dəyişikliklərin baş verməsi və rəsmi Vaşinqtonun bu böhranın beynəlxalq səviyyədə müzakirəsi istiqamətində atdığı addımlara baxmayaraq Klinton administrasiyası bu sahədə Rusiyaya elə də ciddi təzyiqlər etmədi.

**ƏDƏBİYYAT**


1. Велизаде И. М. Этно-территориальный кризис. Баку: Publicity, 2002, 302 с.
2. Голдгейр Дж., Макфол М. Цель и средства. Политика США в отношении России после холодной войны. М.: Международные отношения, 2009, 519 с.
3. История России – новое и новейшее время М.: Эксмо, 2010, 782 с.
4. Россия и Чечня: цепь ошибок и преступлений М.: Звенья, 1998, 398 с.
5. Шипов А. Двуглавый орел над Кавказом 1804-2008 годы. М.: Вече, 2009, 446 с.

6. Elizabeth Bagot US Ambivalence and the Russo-Chechen Wars: Behind the Silence /http://www.stanford.edu/group/sjir/pdf/Chechnya_11.1.pdf/
7. http://cecenistan.ihh.org.tr/uluslararasiplatform/abd/clinton.html
8. http://news.bbc.co.uk/2/hi/europe/553304.stm
9. http://news.bbc.co.uk/2/hi/europe/525011.stm
10. http://news.bbc.co.uk/2/hi/europe/525839.stm
11. http://www.pravda.ru/news/world/31-01-2000/908595-0/#
12. http://idee.org/wellst720.html

## БОРЬБА ЧЕЧЕНСКОГО НАРОДА ЗА НЕЗАВИСИМОСТЬ И ПОЗИЦИЯ США

**А.А.ЗЕЙНАЛАБДИНОВ**

### РЕЗЮМЕ

Статья посвящена теме борьбы за независимость чеченского народа и позиции США. Здесь последовательно исследованы вопросы, связанные с началом борьбы чеченского народа за восстановление своих суверенных прав после распада СССР в начале 90-х г.г. XX в. и отношение США к этой борьбе. В статье также показаны те изменение, которые произошли в позиции США в период борьбы чеченского народа.

**Ключевые слова:** США, чечен, борьба, позиция, конфликт

## THE STRUGGLE OF THE CHECHEN PEOPLE FOR FREEDOM AND USA'S POSITION

**A.A.ZEYNALABDINOV**

### SUMMARY

The article studies the struggle of the Chechen people for their sovereign rights after the decline of USSR at the beginning of the XX century. The changes in the USA's position have been reflected in the article as well.

**Key words**: USA, Chechen, struggle, position, conflict